# TORPAĞIN MÜNBİTLİYİ

**İnsaf Həmzəyeva, Firəngiz Məmmədova, Gülər Həsənli**

*AR Milli Aerokosmik Agentliyinin Ekologiya İnstitutu, Bakı*
*biokimyevi@mail.ru*

Hələ qədimdən torpaqlar bitki əmələ gətirmə və məhsul götürməyə görə qiymətləndirilmişdir. İnsanlar torpağın məhsul vermə qabiliyyətini müşahidə etmişlər. Yəni münbitlik anlayışı yaranmamışdan çox-çox əvvəl insanlar məhsul götürməyə görə torpağı qiymətləndirmişlər. Məlum olmuşdur ki, münbit torpaqlarda məhsuldarlıq artıq olur. Münbitlik haqqında hazırki təlim V.R.Vilyanışki tərəfindən yaranmışdır. O torpağın münbitliynin formalaşmasını və inkişafını hərtərəfli öyrənmiş, münbitliyin araşdırılmasının prinsiplərini işləyib hazırlamışdır.

Torpaqşünaslıq elminin klassik tərəfinə görə münbitlik torpağın bitkinin normal inkişafı və böyüməsi üçün qida elementləri, su, kök sistemlərini hava və istiliklə, əlverişli fiziki kimyəvi mühitlə təmin etmək qabiliyyətidir.

Münbitlik kənd təsərüfatının inkişafı zamanı mədəniləşmə prosesinin nəticəsidir.Münbitlik müəyyən parametr və torpaq rejmlərindən-temperatur, su-hava, qida, fiziki kimyəvi, biokimyəvi, duz və oksidləşmə-reduksiya asılıdır. Rejim parametrləri də öz növbəsində iqlim, torpağın fiziki kimyəvi xüsusiyyətləri, qranumetrik, mineraloji, kimyəvi tərkibi, qida ehtiyyatı, mikrobioloji vəziyyəti, humusu və s-dən asılıdır. Bitkilərin torpaqdan tələbi eyni deyil. Ona görə də konkret bitki üçün münbitlik nəzərə alınmamalıdır. Bunları nəzərə aldıqda münbitliyi süni sürətdə dəyişmək mümkün olur.Münbitlik təbii, süni və potensial olur:

-Təbii münbitlik-xam torpaqlara aiddir, onun faktiki münbitliyidir.

-Süni münbitlik-insan fəaliyyəti ilə kimyəvi və mineral gübrələr sayəsində yaradılır.

Kənd təsərrüfatında təbii və süni münbitlikdən eyni zamanda istifadə olunur, bu effektiv və ya iqtisadi münbitlik adlanır.

Torpağın tərkibində qida elementlərinin müəyyən ehtiyatı (ehtiyat fondu) olur. Bu ehtiyat məhsulun əmələ gəlməsi zamanı qismən istifadə olunur (mübadilə fondu). Qalan ehtiyat fondu potensial fond anlayışının yaranmasına səbəb olur. Potensial münbit torpaqlar meliorasiya tədbirlərindən sonra ehtiyat fondunun qismən sərf etmək hesabına yüksək effektiv münbitliyi təmin etmək qabiliyyətinə malikdir. Laboratoriya şəraitində münbitliyi təyin etmək üçün, əsasən, onun humusu təyin olunur, sonra torpağın kimyəvi tərkibi, növü, üzvi, qeyri-üzvi birləşmələri öyrənilir.